

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 105 (21.515)

9 iyun 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 8-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatlarının rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının deputatı, Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şəxsi nümayəndəsi Adam Delimxanovu qəbul edib.

Adam Delimxanov Bakıda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını deyib.

Dövlətimizin başçısı Azərbaycan və çeçen xalqları arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayıb. Çeçenistanda gedən böyük inkişaf proseslərinə toxunan Prezident İlham Əliyev bu uğurlu inkişafın, sabitliyin və əmin-amanlığın önəmini qeyd edib.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin genişlənməsinə ölkəmizlə Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Çeçenistan Respublikası arasında əməkdaşlığın öz töhfəsini verdiyini bildirib.



## Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa

***Naxçıvan Dövlət Universitetinin nəzdindəki Heydər Əliyev Universitetinin "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" adlı növbəti məşğələsi keçirilib.***

Məşğələni universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb, 15 iyunun ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını qeyd edib, 1990-cı illərin əvvəllərində hökm sürən olduqca mürəkkəb və gərgin bir şəraitdə yenicə əldə olunmuş dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycanın kökü qədimlərə gedən dövlətçilik ənənələrinin yenidən bərpa olunmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb.

Universitetin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev "Ümummilli lider Heydər Əliyev: Qayıdışdan Qurtuluşa" adlı məruzə ilə çıxış edib.

Qeyd olunub ki, hər bir xalqın minilliklər boyu formalaşmış dövlətçilik ənənələrinin praktik şəkildə gerçəkləşməsi üçün əlverişli siyasi mühit və milli iradənin olması mühüm şərtdir. Ancaq mənən güclü, xalqına bağlı, vətənpərvər liderə



malik olmayan xalqın real şansdan yetərincə yararlanması, milli iradəsini toplayaraq müstəqillik, azadlıq ideallarına qovuşması da mümkün deyildir. Yaranmış müəyyən əlverişli mərhələdə məsuliyyəti öz çiyinlərinə götürən belə fenomen şəxsiyyətlər xalqının daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali idealların gerçəkləşməsində müstəsna rol oynayır, bununla da, əbədiyaşarlıq hüququ qazanırlar. Xalqımızın ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlər sırasındadır. Azərbaycanın ötən əsrin 90-cı illərində düşdüyü bəlalardan xilas olunması, itirilməkdə olan dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter alması ulu öndərimizin adı ilə bağlıdır.

Diqqətə çatdırılıb ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini elan etdi. Xalq illər boyu ürəyində yaşatdığı, can atdığı istiqlala qovuşdu. Lakin çox keçmədi ki, ölkəmiz ağır sınaqlarla üzləşdi. Artıq Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması üçün təhlükə göz qabağında idi. 1991-1993-cü illərdə ölkəmizin yaşadığı anarxiya və xaotik proseslər təsdiq edirdi ki, yalnız Heydər Əliyev kimi qətiyyətli, iradəli siyasi lider Azərbaycanı bu bəlalardan xilas edə, yenicə qazanılmış müstəqilliyimizi yaşada bilər.

Vurğulanıb ki, Azərbaycanı müstəqilliyə hazırlayan xalqımızın böyük oğlu Heydər Əliyev belə bir vəziyyəti kənardan seyr edə, xalqın çağırışına, tələbinə biganə qala bilməzdi. 1993-cü il iyun ayının 9-da ulu öndər Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı. Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda dahi öndərin Bakıya qayıdışı respublika əhalisində böyük ümidlər yaratdı. Çünki ölkəni çətin vəziyyətdən ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı. Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra Ali Sovetin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. İyunun 15-i müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə Azərbaycanda bütün sahələrdə əsaslı dönüş baş verdi. Dağılmış iqtisadiyyat bərpa olundu, yeni-yeni müəssisələr işə salındı, yeni iş yerləri yaradıldı, "Əsrin müqaviləsi" imzalandı, Azərbaycanın milli sərvətləri xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəldildi. Ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar oldu, qabaqcıl dünya təcrübəsinin ən yaxşı nailiyyətlərini özündə cəmləşdirən Konstitusiya qəbul edildi. Sosial-mədəni həyatın bütün sahələri əsl inkişafa qovuşdu.

Bildirilib ki, bu gün ölkə başçısı cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Bu səbəbdəndir ki, doğma Vətənimiz Azərbaycan inkişafın yeni mərhələsindədir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan ölkəmizdə nail olunmuş böyük tərəqqinin daha geniş və parlaq müşahidə edildiyi məkandır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında nura boyanır. Bütün bunlar isə zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsidir. Bu siyasət yolumuza daim işıq saçır, bizi zəfərlərə aparır.

**Nərmin CƏFƏROVA**

## May ayında muxtar respublikanın enerji təminatının 90 faizi Günəş və su elektrik stansiyaları hesabına ödənilmişdir



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılmışdır. Bu dövrdə Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində görülən işlər də davam etdirilmişdir. Belə ki, muxtar respublikanın şəhər və kəndlərində 3 ədəd yeni transformator yarımstansiyası quraşdırılmış, 4,5 kilometr uzunluğunda yeni elektrik verilişi xətti çəkilmiş, 1 kilometr uzunluqlu hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmiş, Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 8 transformator təmir olunmuşdur.

Muxtar respublikanın enerji təminatında əsas yeri Günəş və su elektrik stansiyaları tutmuşdur. Belə ki, ay ərzində elektrik şəbəkələrinə buraxılan enerjinin 82,7 faizi su elektrik stansiyalarında, 7,6 faizi isə Günəş elektrik stansiyasında istehsal olunmuşdur.

Naxçıvan şəhərində smartkarttipli sayğacların qoyulması işləri davam etdirilmiş, 430 ədəd belə sayğac quraşdırılmışdır. Bundan başqa, muxtar respublikada elektrik enerjisindən sayğacdankənar istifadənin qarşısının alınması diqqətdə saxlanılmış, yaşayış məntəqələrində mütəmadi olaraq reydlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

## Muxtar respublikada əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi may ayında işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı, tibbi və sosial reabilitasiyası ilə bağlı bir sıra tədbirlər həyata keçirmişdir.*

Belə ki, ötən ay işaxtaran vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 184 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 25 nəfər müvafiq peşə kurslarına cəlb edilmişdir. İşlə təmin olunan və peşə kurslarına cəlb olunanlardan 10-u məhdud fiziki imkanlı, 13-ü hərbi xidmətdən tərxis olunan və 2-si isə cəzaçəkmə müəssisəsindən azad olunmuş şəxslərdir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində may ayında "xalçaçılıq", "aşpaz köməkçisi" və "daşduz üzərində oyma" peşələri üzrə kursları 42 nəfər bitirmişdir. Hazırda "qadın bərbəri" peşəsi üzrə kurs davam etdirilir. Həmçinin "qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər" və "traktorçu-maşınçı" peşələri üzrə yeni kurslara başlanmışdır. Bu dövrdə qeyri-formal məşğulluğun qarşısının alınması məqsədilə 73 obyektdə yoxlama aparılmış, əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə bağlı isə 32 obyektə nəzarət həyata keçirilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud uşaqlar üçün distant dərslərin keçilməsi, onların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Təlimlərə, ümumilikdə, 127 uşaq cəlb olunmuşdur. Görmə məhdudiyyəti olan şəxslər üçün nəşr olunan "Könül işığı" adlı brayl jurnalının növbəti nömrəsi audiokitabxana xidmətinin kataloquna daxil edilmişdir. Həmçinin aztəminatlı ailələrdən olan 45 məktəblinin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunmuşdur.

May ayında tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 452 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 17 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 30 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 30 uşağın müalicəsi təşkil edilmiş, məhdud fiziki imkanlı 6 nəfər müalicə olunmaq üçün Türkiyə Respublikasına göndərilmişdir.

İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş Paralimpiya İdman Festivalı keçirilmişdir. Festivalda 106 məşqçi və idmançı iştirak etmişdir. Sağlamlıq imkanları məhdud uşaqların kütləvi şəkildə idman həyatına cəlb olunmasına şərait yaratmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının nəzdində uşaq paralimpiya klubunun yaradılmasına başlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



**Ulu öndər Heydər ƏLİYEV:** ***İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda, bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.***

*Azərbaycanın özü qədər əbədi*

# 9 iyun – milli dövlətçiliyimizin, xalqımızın, ölkəmizin qurtuluşuna gedən yolun başlanğıc günü

## *Məhz bu gün ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya qayıdışı Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan xilas etdi*

*Müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çətin və önəmlidir. 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi proseslər, qarşıdurmalar fonunda xarici dövlətlərin kəşfiyyat orqanlarının daxilimizdəki simasız dairələrlə birləşərək törətdiyi əməllər nəticəsində ölkəmizdə yaranmış ümumi gərgin vəziyyət bunu bir daha təsdiq edirdi. Azərbaycan xalqı tarixi şansdan istifadə edərək ikinci dəfə qazandığı müstəqilliyi həmin illərdə əldən vermək üzrə idi. Bu dəfə düşmənlərimizin bizim üçün daha dəhşətli plan hazırlaması isə ölkəmizə, xalqımıza və dövlətimizə faciəvi sonluq vəd edirdi. Bəli, belə bir vəziyyətdə, 1993-cü il iyunun 9-da Türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək Bakıya qayıdışı Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi.*

XX əsrin əvvəllərində müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşamış və xarici müdaxilə nəticəsində süquta uğramışdısa, bu dəfə yenə iki il yaşayan Azərbaycan Respublikası maraqlı xarici qüvvələrlə yaxından əməkdaşlıq edən daxilimizdəki xəyanətkarların əməlləri nəticəsində müstəqilliyini itirməklə yanaşı, həm də parçalanmaq, yox olmaq, xəritədən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyət o həddə çatmışdı ki, müəyyən dağıdıcı dairələr ölkəmizin bəzi regionlarını necə ələ keçirmək barədə düşünürdü.

Təbii ki, bu kimi dəhşətli proseslərin baş verməsinin əsaslı səbəbləri var idi. 1992-ci ildə silah gücünə iqtidara gələn AXC-Müsavat cütlüyü hakimiyyətdə qaldığı bir il ərzində ölkəni elə bir bərbad vəziyyətə salmışdı ki, bəzi beynəlxalq siyasi şərhçilərin dediyi kimi, artıq müstəqilliyimizi ancaq möcüzə xilas edə bilərdi. O vaxt Azərbaycan, demək olar ki, dağılırdı, ölkəmizdə anarxiya, xaos, hərc-mərclik hökm sürürdü. Respublikada qanunsuz silahlı quldur dəstələri meydan sulayırdılar. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, parçalanırdı. Əhalinin ərzaq, xüsusilə çörək qıtlığı ilə üz-üzə qalması, daxili sabitliyin pozulması, həqiqəti söyləyən alimlərin, ziyalıların təqib edilməsi, “sadvalçıların” “əlikramçılarla” separat sövdələşmələri, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin fəaliyyətinin iflic vəziyyətinə düşməsi, kənd təsərrüfatının, sənayenin tənəzzülü, ölkəyə ərzaq taxılı əvəzinə qarışıq yem gətirilməsi və bir çox dəhşətli faktlar həmin illərin reallığı idi.

O vaxt Azərbaycan əhalisi artıq iqtidardakıların hansı qabiliyyətin sahibi olduğunu yaxşı bilirdi. Ona görə də AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Elə xalqın dəstəyini itirdiklərinə görə də hakimiyyətdən getməli oldular. Çünki xalq yaxşı bilirdi ki, iqtidarda olanlar Azərbaycanın parçalanmasına, dağılmasına, torpaqlarımızın düşmən işğalına məruz qalmasına göz yumaraq var-dövlət yığmaqla, ölkəni talamaqla məşğuldurlar. Bu səbəbdən hər kəsin qəlbində həmin dövrdəki hakimiyyətə qarşı dərin nifrət kök salmışdı. Bu nifrət o dərəcədə güclü idi ki, xalq indiyədək keçirilən bütün seçkilərdə həmin düşərgəyə birmənalı olaraq “yox” deyir.

1993-cü il iyunun 4-də Gəncədə başlayan qanlı hadisələr Azərbaycan xalqını milli istiqlaldan məhrum olmağın bircə addımlığınadək gətirmişdi. AXC-Müsavat iqtidarı bu addımın qarşısını almaq üçün heç bir iş görmək gücündə deyildi. Çünki siyasətdə təcrübəsizliyə, səriştəsizliyə, qorxaqlığa və qətiyyətsizliyə yer yoxdur. Şəxsi maraqların ictimai maraqlardan üstün tutulması, xəyanətə yol verilməsi, dövlətçiliyimizi təhlükə qarşısında qoyan addımların atılması mütləq mənfi nəticələrini göstərəcəkdi. Bütün bu “keyfiyyətlər” isə AXC-Müsavat iqtidarında özünü qabarıq göstərmişdi. Gəncədə baş verən hadisələrdən sonra onların ulu öndər Heydər Əliyevi Bakıya dəvət etmələri də xalqın təkidli tələblərindən daha çox öz canlarının hayına qalması səbəbindən idi. Halbuki məhz AXC-Müsavat hakimiyyəti 1992-ci il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişinə cəhd göstərmişdi. Onların məqsədi naxçıvanlılar tərəfindən yekdilliklə Ali Məclisin Sədri seçilən ümummilli liderimiz Heydər Əliyevi bu vəzifədən uzaqlaşdırmaq idi. Ancaq alınmadı. Bu hadisədən xəbər tutan Naxçıvan camaatı ayağa qalxdı və dağıdıcı ünsürlərə tutarlı cavab verdi.

Ulu öndərimiz o dövrün Azərbaycanını belə xarakterizə edirdi:

***“1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər”.***

İyunun 4-də Gəncədə baş verən hadisələrdən sonra ölkədə hamı ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini israrla tələb və xahiş edirdi. O zaman dövlətimizin nicat yolu ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsində, xalqımızın ümid yeri isə o böyük insanın siyasi dühasında, liderlik məharətində, dövlətçilik təcrübəsində, şəxsi keyfiyyətlərində idi. Təkcə Bakıdan deyil, ölkənin hər yerindən Naxçıvana göndərilən minlərlə məktubun müəlliflərini bir amal birləşdirirdi: “Heydər Əliyev siyasi hakimiyyətə qayıtmasa Azərbaycan xilas ola bilməyəcək”. Sadə insanlar “Sizin Bakıya qayıtmağınız biz insanlardan daha çox anamız Azərbaycana lazımdır” – deyə gözlənilən faciənin miqyasını dilə gətirirdilər. Ölkə ziyalıları dövlət sükanı arxasında görmək istədikləri yeganə insanın məhz görkəmli dövlət xadimi Heydər Əliyev olduğunu bu şəkildə yazırdılar: *“Möhtərəm Heydər Əliyev! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə insan Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübənizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz” (“91-lər”in Heydər Əliyevə məşhur müraciətindən).* Ali Sovetin deputatları, hökumətin üzvləri, hətta o dövrdəki prezident başda olmaqla bütün dövlət adamları ulu öndər Heydər Əliyevə müraciət göndərir, onun Naxçıvandan Bakıya gəlməsini israrla xahiş edirdilər.

Hər zaman xalqın yanında olan və xalqın arzu-istəklərinin reallaşdırılması üçün öz canını belə, əsirgəməyən ulu öndər 1993-cü il iyunun 9-da muxtar respublikadan Bakıya qayıtmaqla xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Məhz milli tariximizin həmin unudulmaz günü xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkə paytaxtına qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edildi.

Təbii ki, bütün bunlar böyük Qurtuluşdan sonra real həyatda öz əksini tapa bildi. Ancaq ölkədə hamı bu fikirdədir ki, xalqımızı nicata aparan yol bilavasitə iyunun 9-da başlandı. Həmin gün ulu öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: ***“Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli XİLASKARLIQ MİSSİYASINA, AZƏRBAYCANI AZƏRBAYCANA QAYTARMAQ MƏRAMINA xidmət edir”.***

Bütün siyasətçilər haqlı olaraq adıçəkilən addımların qurtuluş məfkurəsinə istinad edərək atıldığını söyləyirlər. Bu da təsadüfi deyildi. Çünki xalqımız və ziyalılarımız ulu öndərin siyasi uzaqgörənliyini hələ ötən əsrin 70-ci illərində görmüşdü. Milli tariximizlə tanış olan hər kəs yaxşı bilirdi ki, son dörd-beş onillikdə respublikamızın taleyüklü məsələlərlə bağlı bütün məqamlarında ümummilli liderimiz Heydər Əliyev xalqın yanında olub. Azərbaycanda ilk dəfə 1969-1982-ci illərdə hakimiyyətdə olan ümummilli lider öz xalqını zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail oldu, geniş vüsət alan inkişaf proseslərinə təkan verdi. O, ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışdı və hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bacarığı, qabiliyyəti, fitri istedadı ilə diqqəti cəlb etdi. Ona görə də 1993-cü ilin iyununda ümummilli liderimizin Naxçıvandan Bakıya qayıdışı xalq tərəfindən alqışlarla qarşılandı.

Xalq bilirdi ki, nəinki müstəqilliyin ilk illərində üzləşdiyimiz bəlalar, hətta ondan bir neçə il əvvəllər başımıza gətirilən müsibətlər də məhz ulu öndərin böyük siyasətdən kənarda olmasının nəticəsi idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz dahi şəxsiyyətin siyasi hakimiyyətdən məcburi uzaqlaşdırılmasından sonra baş verməsi təsadüfi deyildi. O, Azərbaycanda və ya Moskvada hakimiyyətdə olarkən heç kim bu barədə danışmağa belə, cürət edə bilmirdi. 1990-cı ilin yanvarında xalqımıza qarşı törədilən qanlı faciəyə biganə qala bilməyən ulu öndər hadisələrin gərginliyinə, müxtəlif təhlükələrə baxmayaraq, ölkəmizin Moskvadakı nümayəndəliyinə gələrək sovet rəhbərliyinə qarşı kəskin bəyanatla çıxış etdi. Onun həmin tarixi çıxışı Azərbaycanın siyasi həyatında yeni dövrün başlandığını bildirən ilk çağırış, milli azadlıq hərəkatına verilən möhtəşəm dəstək idi.

20 Yanvar hadisələrindən sonra ulu öndərin Azərbaycana qayıtması, keçmiş sovet sisteminin oyuncağı olan yerli rəhbərliyin Ona qarşı xəyanətkar hərəkətləri, Ona Bakıda yaşamağa imkan verilmədiyi indi hamıya məlumdur. O da məlumdur ki, ümummilli lider Moskvada sakitcə yaşaya bilərdi. Ancaq O, sakitliyi və rahatlığı deyil, Azərbaycanın taleyini düşündü. Onun möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, yerli əhali hədsiz sevgi, məhəbbət və inamla qarşıladı. Hətta naxçıvanlılar bütün manelərə baxmayaraq, qısa müddət ərzində ulu öndərimizi özlərinə rəhbər seçdilər. Ümummilli liderimiz hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, onu düşməndən qorudu, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağını dirçəltməyə başladı.

Böyük dövlət xadiminin məhz Naxçıvandakı idarəetmə uğurlarını görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə dahi şəxsiyyət Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Naxçıvanın tarixi dövlətçilik ənənələrini müasir dövrün tələblərinə uyğun inkişaf etdirən dahi şəxsiyyət xalqın Ona bəslənən bütün ümidlərini doğrultdu, Azərbaycanı yox olmaqdan xilas etdi.

Ali Sovetin 1993-cü il iyunun 15-də keçirilən sessiyası parlamentin ən gərgin müzakirələr gedən, fikirlərin ən çox haçalandığı və vaxt etibarilə ən uzun çəkən iclası oldu. Xalqın iradəsini ifadə edən deputatlar böyük səs çoxluğu ilə dahi rəhbər Heydər Əliyevi Ali Sovetin Sədri seçdilər.

***“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır”***, – deyən ulu öndər problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyi, sabitliyi son dərəcə vacib sayırdı: ***“Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”.***

Ulu öndər Heydər Əliyev qısa zamanda dövlət quruculuğu prosesinə start verdi, Milli Ordumuzu formalaşdırdı, düşmən işğalının qarşısını aldı. Ölkədə nisbətən sabitlik yarandı. 1993-cü ilin oktyabrın 3-də ümummilli lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. Ulu öndər ölkə Prezidenti kimi Vətəni və xalqı naminə yenə əvvəlki coşqunluqla, əzm və mətanətlə, işgüzarlıqla gecə-gündüz yorulmadan çalışmağa başladı.

Bu gün respublikamızda dahi şəxsiyyətin müəyyənləşdirdiyi uğurlu siyasi xəttin qətiyyətlə davam etdirilməsi Azərbaycan xalqının xoşbəxtliyidir. Ölkəmizin firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində bu gün respublikamız regionun lider dövlətinə çevrilib, ölkəmizin nüfuzu daha da artıb. Bu gün respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir.

*Xalqımız, dostlarımız və bədxahlarımız çox yaxşı bilirlər ki, Azərbaycanın bugünkü uğurlarının hamısının təməlində ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı və həmin qayıdışın ölkə əhalisində yaratdığı ruh yüksəkliyi dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi:* ***“Xilasımız və inkişafımız ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur”.***

✍ Rauf ƏLİYEV



# Hər sahədə nümunəvi Naxçıvan

***İctimai həyatın mühüm tələbatlarından biri ümumi qəbul olunmuş norma və qaydalara əməl etməklə cəmiyyətdə hərtərəfli inkişafa nail olmaqdır. Hərtərəfli inkişaf isə hərbi-siyasi gücü təmin edən ən mühüm şərtdir ki, bu da olmadan milli təhlükəsizliyimiz, yəni gələcəyimiz olmaz. Deməli, hərtərəfli inkişaf edib ölkəmizi, dövlətimizi gücləndirməyimiz üçün çox çalışmalı və hər sahədə nümunəvi olmalıyıq.***

Bir çoxlarının nəzərində inkişaf hansısa ölkənin güclü iqtisadiyyatı, maddi sərvəti deməkdir. Əlbəttə ki, məsələyə sırf statistik-təhlili nəzərdən baxdıqda belə arqumentlər həmişə ön plana çıxır. Çünki iqtisadiyyat həmişə inkişafın əsas meyarı olub. Lakin inkişafın mənəviyyat, insanın dünyagörüşü, onun cəmiyyətin birgəyaşayış norma və qaydalara əməl etməsi baxımından da ciddi tələbləri vardır. Müasir dünyaya diqqətlə nəzər saldıqda çox aydın görünən bu incə xətlər diqqətimizi cəlb edir: inkişaf təkcə rəqəmlərlə ölçülən bir meyar deyildir.

Şübhəsiz, yaxın keçmişə, yəni müstəqilliyimiz dövründə ölkəmizin və eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişaf yoluna nəzər saldıqda çox sayda fərəhdoğuran rəqəm, fakt və hadisə göz önündə canlanır. Məhz bu inkişafımızın nəticəsidir ki, muxtar respublikanın xarici-iqtisadi əlaqələri davamlı olaraq genişlənir. Xüsusən son 20 ildə insana diqqət, asayiş və ekoloji mədəniyyət kimi sahələrdə qazandığımız keyfiyyətlər sarıdan bu gün bir çox inkişaf etmiş ölkələrlə belə, müqayisədə çox üstünük. Deməli, hərtərəfli inkişafa qovuşmaq üçün kiminsə ideal hesab etdiyi bir cəmiyyət modelinə bənzəmək yerinə öz milli dövlətçiliyimizi möhkəmləndirmək və mədəniyyətimizi qoruyub saxlamaq üçün tutduğumuz yolla davam etməliyik. Ən doğru yol kimi bütün bunlar keçən iyirmi ilin Naxçıvan təcrübəsində bir daha açıq görünür.

Naxçıvan öz tarixi boyu bu qədər zəngin dövr keçməmişdir. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindəki böhran, dağıdıcılıq və az qala həyata inamsızlıq kimi kataklizmlərin vurduğu yaraların sağaldılması üçün bu dövrdə nə qədər əziyyətli yollardan keçdik. O dövrdə qurulacaq yeni həyat üçün keçmiş sovet rejiminin qanunlarının bütün cəmiyyətcə inkar olunması və yenicə qazanılmış müstəqilliyin kövrək addımlarının möhkəmləndirilərək güclü, müstəqil Azərbaycan qurulması hamının arzusu idi. Ancaq bu sadalananların xəyallardan real həyata tətbiqi yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin bir xilaskar kimi yenidən ölkəmizin rəhbərliyinə qayıtması ilə başladı. Və indi geriyə dönüb baxdıqda görürük ki, iqtisadi gücə görə geridə qoyduğumuz ölkələr arasında bizdən həm ərazicə, həm də əhalicə böyük olanlar az deyil. Hətta onlar arasında Avropa İttifaqının üzvləri olan ölkələr də vardır.

Ölkəmizin müasir inkişafında Naxçıvan Muxtar Respublikasının öz töhfələri vardır. Müstəqilliyimizin ilk dövrlərindən başlayaraq, istər mühüm siyasi qərarların verilməsi, istərsə də iqtisadi islahatların aparılması baxımından Naxçıvan həmişə ön cərgələrdə olub. Naxçıvan özünün yerləşdiyi coğrafi mövqeyi ilə ölkəmizin əsas hissəsindən aralı düşsə də, onsuz ölkə gündəminin bir günü belə, olmayıb. Bu, müstəqilliyimizin ilk illərində, ümummilli lider Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti dövründə də belə olub və indi də eyni templə davam etməkdədir. Bu ritmin sirlərini açmaq, onu təhlil etmək gələcəkdə təkcə siyasət bilicilərinin deyil, həm də iqtisadçıların, mədəniyyətşünasların tədqiqat işləri olacaq. Ancaq bu gün yurdumuza səyahət edən hər bir qonaq bunları soruşur: Necə oldu ki, blokada vəziyyətində olan Naxçıvanda çox qısa bir zamanda bu qədər möhkəm qorunan sabitliyə nail olundu? Hansı səbir və siyasi iradə ilə blokada çətinlikləri arxada qaldı? Çoxlarına maraqlıdır ki, görəsən, bu gün bir az qıtlıq və çətinlik yaşanan yerlərdə kütləvi iğtişaş və vətəndaş itaətsizliyi baş qaldırdığı halda, necə oldu ki, naxçıvanlılar illərlə blokadanın yaratdığı belə çətinliklərə həmrəyliklə sinə gərdilər? Əcnəbi turistlər və diyarımızın qonaqlarına inandırmaq çətindir ki, bütün bunlar naxçıvanlıların özünə və doğmalarına, həmvətənlərinə və qonaqlarına, nəhayət, bütün insanlığa olan sevgisindən, onlara səmimi hörmət hissindən qaynaqlanır. Doğrudan da, bu gün çox sayda ölkədə bu qanunlar şəhərin küçələrində əldə silah növbə çəkən hərbçi, polis və döyüş texnikası hesabına yaradılır. Ancaq Naxçıvanda bunlar varmı? İnsanların ürəyində kök salmış vətənpərvərliyi, qanına hopmuş tolerantlığı təkcə insana deyil, bütün yaradılana məhəbbət hissləridir ki, bu torpaqda heç nə ögey deyildir. Bütün qurulub yaradılana nəzarət, əkilən hər ağaca qulluq, hər çiçək açmış gülkarlığa nəvaziş təkcə bir nəfərin istəyi deyil bu torpaqda. Bu, bizim bir həyat tərzimiz, əqidəmizin prinsipidir. Öz əqidəsində isə naxçıvanlılar polad kimi sərtdirlər. Çünki vətənə və dövlətə sədaqət ruhu ilə yaşayan hər bir naxçıvanlı harada olursa olsun, bir amal, bir sevgi üçün yaşadığını həmişə yaxşı bilir. Bu, onun üçün hər şeydən əziz olan Azərbaycan, onun hər qarış torpağıdır.

# Naxçıvan şəhəri üzrə üçgünlük tanışlıq turu

***Ekskursiyalar zamanı təqdim olunan məlumatlar turistlərin yaddaşında əsas təəssüratları formalaşdırır. Bu baxımdan ekskursiyaların təşkili zamanı turistlərə təqdim olunması zəruri hesab edilən obyekt və informasiyalar haqqında yaxşı bilik və peşəkarlıq tələb olunur.***

Müasir Naxçıvanın turizm cazibədarlığı xeyli yüksəkdir. Diyarımızın tarixiliyinin qorunub saxlanılması ilə yanaşı, onun müasirliyə qovuşması ilə muxtar respublikamıza səyahət edən əcnəbi turistlərin də sayı artmaqdadır. Ötən dövrdə muxtar respublikamızda turizm infrastrukturu yaradılması və turizmin inkişafı istiqamətində qəbul edilmiş mühüm qərarlar artıq öz bəhrəsini verməkdədir. İndi hər gün restoranlarda, bazar və marketlərdə çox sayda əcnəbi turistlərə rast gəlməkdə, otellərimizdə artan işgüzarlığı görməkdəyik. Bölgəmizə gəlmiş bu turistlər maraqlı yerlər görmək, naxçıvanlıların həyat tərzi, məşğuliyyəti, mədəniyyəti ilə tanış olmaq məqsədilə gəzintiyə çıxır və ya onlar üçün xüsusi şəhər ekskursiyaları təşkil olunur. Buna görə də əsas səyahət məqsədi tanışlıq olan turistlərə təqdim edilən bütün əlavə xidmət və informasiya bu təəssüratları daha da dərinləşdirən amillərdəndir.





Muxtar respublikamıza gəlmiş turistlər Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu dərhal görürlər. Sirr deyil ki, əcnəbi turistlər ölkəmizin neftlə zəngin olduğunu bilirlər. Amma dünyada Azərbaycan kimi neftlə zəngin olan ölkələr də vardır ki, burada neft gəlirlərinin əhalinin ümumi rifahına, abadlığa və müasir infrastruktur yaradılmasına sərf olunması çox cüzi səviyyədədir. Bu baxımdan, ölkəmiz haqqında yalnız neftlə bağlı olan təsəvvürləri qırmaq üçün turistlərin Naxçıvan Muxtar Respublikasına səfərləri əla fürsətdir.

Turizm real tələbatlar üzərində yaranıb inkişaf edən və buna görə də turistlərlə iş zamanı reallıqların nəzərə alınmasını tələb edən bir fəaliyyət növüdür. Məsələn, Naxçıvana Orta Asiyadan gəlmiş turistlərə Möminə xatın türbəsini təqdim edərkən onlar öz şəhərlərində belə türbələrin bir deyil, onlarla sayda olduğunu deyə bilərlər. Amma qonaqlara həmin abidələrin ən qədiminin yalnız XIV əsrə, yəni Teymurləng dövrünə aid olduğunu, Naxçıvandakı bu abidənin isə onlardan iki yüz il əvvəl ucaldıldığını çatdırsaq, bu, ən etinasız turisti yerindəcə dondurar. Yəni turistlərimiz Naxçıvanın Şərq memarlıq məktəbinin mərkəzi olduğunu hökmən bilməlidirlər. Və yaxud ola bilər ki, turistlərə qarşı otel və ya restoran xidmətçilərindən kimsə diqqətsizlik etsin. Doğrudur, çox səyahət edən turistlərin əksəriyyəti belə kiçik hallara qarşı sərt reaksiya vermirlər. Amma Naxçıvana gələn turistlər bilməlidirlər ki, burada servis sektorunda fəaliyyət göstərən personaldan istənilən bir nəfərə bütün məsələlərdə etibar edə bilərlər. Çünki bu diyarın sakinlərində dürüstlük əsas insani keyfiyyətlərdəndir.

Naxçıvan şəhərinə gəlmiş qonaqları çox maraqlı tanışlıqlar gözləyir. Hazırda Naxçıvan şəhərini yaxından görmək istəyən turistlərin tələbatlarına uyğun olaraq müxtəlifməzmunlu qısa və bir neçə saatlıq tur gəzintiləri təşkil edilir. Belə ki, bu ildən başlayaraq Naxçıvan şəhərinin görməli yerləri ilə tanışlıq məqsədilə gündə iki dəfə olmaqla, turistlər üçün şəhər turları təklif olunur. Turistlərin maraq dairəsi və boş vaxtlarını nəzərə alaraq onlara təklif olunan belə turların planlaşdırılması zamanı buradakı elm, mədəniyyət, təhsil, istehsal, xidmət və əyləncə müəssisələrinin sırasını müvafiq qaydada tərtib etmək olar. Söz yox ki, mədəni səviyyəsi yüksək olan istənilən qonaq Naxçıvanın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni olması faktına böyük maraq göstərir. Müxtəlif məqamlarda şəhərimizə gəlmiş əcnəbi turistlərlə söhbətlərimizdə Naxçıvanın Azərbaycan tarixində, xalqımızın mədəniyyətindəki yeri ilə bərabər, həm də milli müstəqilliyimizin əldə olunmasındakı rolunun da çox maraqla dinlənildiyini görmüşük. Odur ki, Naxçıvan şəhəri ilə tanış olmaq istəyən turistlərin ekskursiya proqramında Heydər Əliyev Muzeyi ilə tanışlıq çox maraq kəsb edir.



Naxçıvan şəhəri üzrə tanışlıq turunun birinci günündə Heydər Əliyev Muzeyinə ziyarətdən sonra ekskursiya şəhərin cənub-şərq hissəsində yerləşən “Koroğlu” heykəlinə baxış və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi üzrə davam etdirilə bilər. Şübhəsiz, “Naxçıvan” toponiminin Nuh Peyğəmbərin adı ilə bağlı olması və buranın qədim şəhər mədəniyyəti haqqında danışmaq üçün bu kompleksdə kifayət qədər çox maddi-mədəniyyət nümunəsi vardır. Naxçıvanqala cənub-şərq istiqamətdən şəhərin mərkəzinə girəcəkdə yerləşir. Doğrudur, bu kompleksə aparan yol üzərində beynəlxalq dildə heç bir ad yazılmasa da, qalaya daxil olduqda buradakı tarix izləri turistlərə özü hər şeyi deyir. Ümumiyyətlə, təkcə şəhərimizdə deyil, muxtar respublikamızın hər yerində yaşayış məskənlərinə, xüsusən turizm əhəmiyyəti kəsb edən obyektlərə aparan yollarda turistlərin zəruri informasiya tələbatının ödənilməsi üçün beynəlxalq dildə yazılmış yer adlarının olmaması aidiyyəti təşkilatları düşündürməlidir.

Naxçıvanqalada və ona yaxın Nuh Peyğəmbərin məzarüstü türbəsində yaxşı təşkil olunmuş ekskursiya və peşəkar təqdimat vaxtın səmərəli keçməsinə imkan yaradır. Əgər nahar fasiləsi də yaxınlıqdakı “Nuh yurdu” restoranında sifariş olunmuşsa, bu ekskursiya təşkili baxımından uğurlu kompozisiya olacaqdır. Bundan sonra, “Buzxana” tarix-memarlıq abidəsində turistlərə təklif olunan çay süfrəsi, buranın ab-havası qonaqların yaddaşında uzun müddət yaşayacaqdır.

Turun ilk gününün ikinci yarısı turistlərin Naxçıvan Duzdağı ilə tanış olması üçün əla vaxtdır. Təqribən, saat $18^{00}$-a qədər, yəni burada müalicə olunan pasiyentlərin gəlişinə qədər tur qrupuna Duzdağın tarixi, onun müalicəvi əhəmiyyəti və imkanları haqda geniş informasiya vermək mümkündür. Bu zaman fasiləsində Duzdağın sərin və oksigenlə zəngin havasında yaxşıca dincəlmiş turistlər axşama yaxın Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki “Araz” yeməkxanasında təndir kababına qonaq ediləcəklər. Beləcə, Duzdağ yolundan, təqribən, 35 kilometrlik məsafə boyu Ağrı dağı mənzərəsi fonunda səyahət edən turistlər muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqında təsəvvür əldə edəcəklər.

Naxçıvan şəhəri üzrə turun ikinci günü daha mənalıdır. İlk olaraq şəhərin cənub hissəsində ucaldılmış xalq qəhrəmanı Babəkin atlı heykəli ilə tanışlıq yerinə düşər. Ümumiyyətlə, Naxçıvan şəhərinin meydanları öz atlı heykəlləri ilə diqqəti cəlb edir. Şəhərə doğru dönüşdə “Naxçıvan” Universitetinin müasir kampusu ilə tanışlıq qonaqların təəssüratlarında tarix və müasirlik anlayışının necə sintez olunduğunu möhkəmləndirəcək. Nahara qədər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində keçirilən bir neçə saat vaxt ərzində turistlər Naxçıvanın qədim tarixinə bir daha şahidlik etmək imkanı qazanacaqlar. XII əsr Azərbaycan memarlıq məktəbinin görkəmli nümayəndəsi Memar Əcəminin yaratdığı bu möhtəşəm əsər və açıq səma altında nümayiş etdirilən qoç heykəllər bu bölgədə analoqu olmayan bir tarixi zənginlikdən xəbər verir. Uzunoba Su Anbarının ətrafındakı restoranda sifariş edilmiş nahar yeməyindən sonra turistlərin Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanışlığı şəhərin ümumi panoraması ilə tanışlıq üçün əla imkandır. Naxçıvan şəhərində günortadan sonra bazarlar işləmədiyindən turistlərə şəhər mərkəzindəki iri marketlərdə və ya Cahan AVM-də alış-veriş təklif olunur. Qonaqlarımızın şam yeməyi üçün şəhərin Haçadağ səmtindəki “Badaşqan” restoranı əla seçim olardı.

İki gün ərzində həm muxtar respublika, həm də Naxçıvan şəhəri haqqında kifayət qədər məlumat alıb, istirahət etmiş turistlər üçün növbəti gün səhər yeməyindən sonra müqəddəs Əshabi-Kəhf ziyarətgahı bu turun final ekskursiyasıdır. Bu istiqamətdəki səyahət haqqında məlumatlandırılmış və islami qaydalar barəsində əvvəlcədən xəbərdar olunmuş turistlərə hələ Naxçıvan-Culfa yolundan başlayaraq müqəddəs Əshabi-Kəhf haqqında təqdimata başlamaq mümkündür.



Bu minvalla, cəmisi 12 kilometrlik yolun sonunda turistlər sanki sonsuzluğa qədər uzun bir yol qət etdiklərinə, amma bu yolun hələ də bitmədiyinə bir daha şahid olacaqlar. Bir də, turistlər arasında bu müqəddəs məkana ilk dəfə ayaq basanlar vardırsa, bu təəssürat Naxçıvana bir daha yenidən səyahətlərinə qədər onlara hakim kəsiləcək.

*Üçüncü günün sonunda, naharda “Təbriz” mehmanxanasının 13-cü mərtəbəsindəki restoranında vida yeməyindən sonra öz ölkələrinə yola düşən turistlər bu qədim Azərbaycan torpağının digər gəzməli-görməli yerlərini bir daha görə bilmələri üçün indidən vaxt planlaşdıracaqlar. Deməli, şəhərimizlə tanışlıq uğurlu keçmiş, sıradakı Batabat, Əlincəqala, Ordubad istiqamətlərindəki turlarımız üçün yaxşı təcrübə qazanmışıq.*

***Səhifəni hazırladı:*** ✍ **Əli CABBAROV**

## “Naxçıvan göycəsinin əkilib-becərilməsi texnologiyası və artırılması üsulları” mövzusunda tarla seminar-müşavirəsi keçirilib

***Babək rayonunun Babək qəsəbəsində sahibkar Vahid Rəsulovun göycə bağında “Naxçıvan göycəsinin əkilib-becərilməsi texnologiyası və artırılması üsulları” mövzusunda tarla seminar-müşavirəsi keçirilib.***

Seminar-müşavirəni Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov açaraq keçirilən tədbirin mahiyyəti barədə iştirakçılara ətraflı məlumat verib. Bildirilib ki, dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunan aqrar sahənin inkişaf etdirilməsində elmi əsaslara söykənən texnologiyaların tətbiqi yüksək məhsuldarlıq əldə olunmasına bilavasitə təsir edən mühüm amildir. Bugünkü müşavirəni keçirməkdə məqsədimiz göycənin becərilmə texnologiyası, genetik fondun qorunub saxlanılmasında əhəmiyyəti və eləcə də kənd təsərrüfatının əkinçilik sistemində ixtisaslaşmanın günün tələbləri səviyyəsində həyata keçirilməsinə dair elmi əsaslarla maarifləndirici söhbətlər aparmaqdan ibarətdir. Bu məqsədlə rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə müşavirəyə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssis qrupu və bu yaxınlarda Naxçıvanda keçirilən Göycə festivalının qalibləri dəvət olunublar.



Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsinin müdiri Ədalət Hüseynov “Göycə bitkisinin becərilmə aqrotexnikası”, AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşı, aqrar elmlər üzrə fəlsəfə doktoru Loğman Bayramov “Qədim əkinçilik mədəniyyətimizdə göycə bitkisinin yeri və genetik fondun qorunub saxlanılmasında əhəmiyyəti”, Kənd Təsərrüfatı Nazirliyinin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsinin müdiri Əsgər Həsənov “Kənd təsərrüfatında ixtisaslaşmanın düzgün həyata keçirilməsi yüksək məhsuldarlıq əldə olunmasına əsas verir” mövzularında çıxışlar ediblər.

Seminar-müşavirədə Göycə festivalının qaliblərindən Amil Məmmədov, Əhəd Məmmədov, Elşən Eyvazov, Rəşad Məhərrəmov, Baxşəli Quliyev, Yaqub Həsənov və tədbirin keçirildiyi bağın sahibkarı Vahid Rəsulov da çıxış edərək özlərinin iş təcrübələri və əldə etdikləri uğurlar haqqında maraqlı məlumatlar veriblər.

Sonda sahibkarlar tərəfindən verilən suallar ətraflı cavablandırılıb.

Tədbirə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov yekun vurub, sahibkarlara öz işlərində uğurlar arzulayıb.

✍ **Kərəm HƏSƏNOV**

***Dənli və texniki bitkilərin yetişdirilməsi, tədarükü əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət kəsb etdiyindən muxtar respublikamızda bu sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Kənd əhalisi onlara verilən torpaq sahələrindən səmərəli istifadə edərək taxılçılığın inkişafına üstünlük verir. Artıq torpaq mülkiyyətçiləri və fermerlər əkib-becərdikləri taxılın biçilməsinə hazırlaşırlar. Biçin mövsümündə qarşıya qoyulan vəzifələrdən biri də tədarük edilən məhsulların yanğından qorunması, yanğın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsidir. Birinci növbədə qeyd olunmalıdır ki, kənd təsərrüfatı məhsullarının yanğından qorunması təkcə yanğın təhlükəsizliyi orqanları əməkdaşlarının deyil, həm də kənd təsərrüfatında çalışan bütün insanların – traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin və sürücülərin ümdə vəzifəsidir.***

## Ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və biçin zamanı yanğınların baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə məhsul tədarükü ilə məşğul olanlara yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyi tövsiyə edir.

Mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək onlar yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla bağlı torpaq sahibləri arasında müvafiq maarifləndirmə işlərinə geniş yer verməlidirlər.

Taxıl biçinində iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi proqram üzrə yanğına qarşı təlimat keçməlidir. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən bütün texnikaların mühərriklərinin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda həmin traktorlar da mütləq qığılcımsöndürənlərlə təmin edilməlidirlər.

Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədilə örtüksüz və ya örtüyü açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir. Kombayn, traktor və özühərəkətedən kənd təsərrüfatı texnikalarının akkumulyatorları işləDicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və ya plastmas borularla mühafizə olunmalıdır.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxs tərəfindən, yedəyə alınmaqla və yüksəklikdən buraxmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra kombaynların sahələrdə saxlanması yolverilməzdir.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayalanmalıdır. Taxıl yetişən zaman zəmiləri yanğından qorumaq üçün xüsusi keşikçilər ayrılmalıdır.

Tarla düşərgələrində, taxıltəmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində “Siqaret çəkmək yeri” yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır.

Biçin zamanı taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Kombaynların diyircəklərinin və digər sürtünən hissələrinin qızmasının qarşısını almaq məqsədilə onların yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların və digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralı məsafədə yerləşdirilməlidir. Xırmanların ətraf sahələri quru otlardan, yanar materiallardan mütləq təmizlənməli, ətrafı isə 4 metr enində şumlanmalıdır.

Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hər bir vətəndaşın borcudur. Taxıl bərəkətdir və o, böyük zəhmət hesabına yetişdirilir.

*Taxıl biçini dövründə hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin* ***“112”*** *qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin* ***“101”*** *xidməti telefonlarına zəng etməyi unutmayın.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda növbəti maarifləndirici kurs

***Əmək münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi qeyri-leqal əmək münasibətlərinin qarşısının alınmasında, sosial sığorta haqlarının artmasında, həmçinin əmək bazarının təhlilində mühüm rol oynayır. Bu mənada, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” mühüm əhəmiyyətə malikdir.***

Cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən adıçəkilən dövlət proqramının işçilərin əmək hüquqlarının təmin edilməsi bəndinin icrası ilə bağlı olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində 2 dəfə maarifləndirici kurs keçirilib və bu kurslara 20 müəssisənin kadr işləri üzrə mütəxəssisləri cəlb ediliblər. İyunun 6-da Naxçıvan Regional Peşə Tədris Mərkəzində bu istiqamətdə növbəti tədbir təşkil olunub. “Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri” mövzusunda təşkil olunan kursa “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin, Babək “Şərab-2 Yeddilər ASK”, “Dizayn Beton Məmulatları Kompleksi”, “Gəmiqaya Nəqliyyat” və “Naxçıvan Sement Zavodu” Məhdud Məsuliyyətli cəmiyyətlərinin, “Gəmiqaya Şirkəti” Məhdud Məsuliyyətli Cəmiyyətin inşaat materialı kompleksinin, Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin, “Müasir Məkan” ət və ət məhsulları, “Damla” şirniyyat istehsalı müəssisələrinin və “Cahan Holdinq” Kommersiya Şirkətləri İttifaqının tabeliyində məişət evinin kadr işləri üzrə, ümumilikdə, 10 mütəxəssisi cəlb olunub. Kurs beş iş günü davam edəcək.

Kursda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən “Əmək müqaviləsinin bağlanmasının əsasları və qaydaları”, “Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları”, “Əmək müqaviləsi üzrə işəgötürən və işçinin hüquq və vəzifələri”, “Əmək münasibətləri zamanı digər sənədləşmə işlərinin qanunamüvafiq həyata keçirilməsi” və digər mövzular tədris olunur.

Yekunda kurs iştirakçılarının bu sahədəki bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Ac həriflər” tamaşası Kəngərli rayonunda göstərilib

***Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı görkəmli yazıçı və dramaturq Əbdürrəhim bəy Haqverdiyevin “Ac həriflər” birpərdəli vodevili əsasında hazırlanmış tamaşanı Kəngərli rayonunun ictimaiyyətinə təqdim edib.***

Tamaşadan əvvəl Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əli Qəmbərov çıxış edərək bildirib ki, 1938-ci ildə dram dərnəyi kimi fəaliyyətə başlayan Şərur Rayon Xalq Teatrı 1981-ci ildə xalq teatrı statusu alıb. Kollektiv müxtəlif illərdə “Solğun çiçəklər”, “Vaqif”, “Ölülər”, “Tamahkar”, “Rəhmə gəl, mələyim”, “Müsyö Jordan və Dərviş Məstəli şah”, “Qısqanc ər”, “Yuxu” və başqa səhnə əsərləri ilə tamaşaçıların görüşünə gəlib. Xalq teatrı 2008-ci ildə Bakı şəhərində keçirilən xalq teatrlarının respublika müsabiqəsində “Müsyö Jordan və Dərviş Məstəli şah” tamaşası ilə II yerin diplomuna layiq görülüb. Teatr bu gün ilk dəfə olaraq Kəngərli Rayon Mədəniyyət Evinin səhnəsində görkəmli dramaturqumuz Əbdürrəhim bəy Haqverdiyevin “Ac həriflər” tamaşasını teatrsevərlərə təqdim edir. 1911-ci ildə yazılan “Ac həriflər” əsəri yetkin məzhəkədir.

Qeyd edək ki, tamaşada hadisələr tipik bir Azərbaycan şəhərindəki yeməkxanada, aşpaz Həsənin yeməkxanasında cərəyan edir. Həsən dayı (Neymət İslamoğlu) və onun yeməkpaylayanı Zərbəli (Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Elçin Arzumanlı) bura gələn “ac həriflər”in kələyinin qurbanı olurlar. Yeməkxanaya gələn müxtəlif personaj və obrazlar böyük bəstəkarımız Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” komediyasındakı tipləri xatırladırlar. Məşhur komediyadakı qonaqlıq səhnəsindən fərqli olaraq buradakı tiplər yeməkxanada yediklərinin pulunu ödəmək əvəzinə müxtəlif kələk və fırıldaqlara əl ataraq aradan çıxmaq istəyirlər. Bəxtsiz Həsən dayı və Zərbəlinin acizliyi gülüş doğurur. Yeməkxanaya gələnlərin, məsələn, mühərrir Mirzə Mahmud (Məhərrəm Əbilsoy), aktyor Həsən (Nəsimi Məmmədzadə) və başqaları hərəsi bir sənətin sahibidirlər. Onlar yeyib əkilmək istəyirlər, çünki ciblərində pulları yoxdur. Tamaşaçı müxtəlif tiplərin dialoqlarında o dövrün gülüşdoğuran mənzərələrini öz gözü ilə görür. Tamaşada rol almış aktyorlar Çakər Məmmədov (Süleyman), Salman Şirəliyev (Əhməd), İlham Quliyev (Rza), Əfsər Novruzov (Lətif) bu tiplərin dinamik canlandırılmasına çalışırlar. “Ac həriflər” tamaşasında kütləvi səhnələrdə Aynur Cəfərova, Nilufər Əhmədova, Gülnar Quliyeva və Uğur Cəfərov rol alıblar. Quruluşçu rejissor Nəsimi Məmmədzadə musiqi və səhnə tərtibatını da öhdəsinə götürərək şən və komik bir tamaşa yaratmağa müvəffəq olub.

Tamaşa Kəngərli rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

### İtmişdir

Şirəliyev Tural Zakir oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 449